**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SÜLEYMAN ƏLƏSGƏROVUN KAMERA-VOKAL YARADICILIĞI

İxtisas : 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Ülfət Namiq qızı Niftiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq doktoru, professor
**İmruz Məmməd Sadıx qızı Əfəndiyeva**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, dosent
**İnara Eldar qızı Məhərrəmova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Mehriban Fikrət qızı Əhmədova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Leyla Zəki qızı Quliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
____________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi:
Sənətşünaslıq doktoru, dosent
____________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri:
Sənətşünaslıq doktoru, dosent
____________ **Aytac Elxan qızı Rəhimova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan bəstəkarlıq məktəbinin, ilk növbədə dahi Üzeyir Hacıbəylinin ənənələrini davam etdirən Süleyman Ələsgərov Azərbaycan musiqi mədəniyyətində çoxşaxəli fəaliyyət göstərmiş, təşkilatçı kimi böyük iş aparmış, bəstəkar, dirijor, pedaqoq kimi milli musiqimizin tarixinə daxil olmuşdur. S.Ələsgərov bəstəkar kimi çox qiymətli irs qoyub getmişdir. Onun yaradıcılığının palitrası ifadə etdiyi mövzu və obrazlar ilə yanaşı, əhatə etdiyi janrların rəngarəngliyinə görə çox zəngindir. S.Ələsgərovun yaratdığı əsərlərin böyük əksəriyyəti doğma Azərbaycanla bağlıdır. Bu bağlılıq həm onun əsərlərinin ilk xanələrində, ilk musiqi sədalarında, həm bəstəkarın müraciət etdiyi mövzularda, həm də onun yaratdığı musiqi obrazlarının xarakterində özünü parlaq büruzə verir. Bəstəkar Qarabağ torpağında, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada dünyaya göz açmış, buranın musiqili mühitində böyümüş, kiçik yaşlarından muğamları, xalq mahnılarını, rəqs melodiyalarını dinləmiş və gələcək bəstəkarlıq fəaliyyətində bunlardan məharətlə istifadə etmişdir. Xalq musiqi xəzinəsi, onun incə nümunələri əsasında yaratdığı istər kiçik, istərsə də iri həcmli əsərləri hamı tərəfindən sevilmiş və geniş dinləyici kütləsinin musiqili estetik zövqünün formalaşmasında böyük rol oynamışdır. S.Ələsgərovun əsərlərini dinlədikcə musiqinin hər bir rəng və çalarlarını görmək olur. Təbiət öz yaşıllığı, dağlar öz əzəməti, bulaqlar öz saf və təmiz suları ilə onun əsərlərində dinləyici qəlbinə yol taparaq, insanın yaşamaq və bu gözəlliklərdən zövq almaq ruhunu yüksəldir. Bəstəkarın musiqi dili həmişə zamanla səsləşmiş, aktual və xalq tərəfindən qəbul edilən şəkildə olmuşdur. Şübhəsiz ki, S.Ələsgərovun bəstəkar kimi formalaşmasında xalq musiqisinin əsaslarını Üzeyir Hacıbəyli kimi sənətkardan öyrənməsi mühüm rol oynamışdır. Yaratdığı misilsiz musiqi əsərlərində öz xalqının mənəvi – estetik görüşlərini, təxəyyülünü, qədim adət - ənənələrini canlandırmaqla müxtəlif milli məktəbləri, üslub və cərəyanları təmsil edən, yeni məna kəsb etmişdir.

S.Ələsgərov dövrünün əksər janrlarına müraciət etmiş, opera, operetta, kantata, vokal-simfonik poema, simfoniya, simfonik muğam, üvertura, simfonik poema, süita, instrumental konsert, kamera-vokal musiqinin müxtəlif janrlarında çoxsaylı əsərlər yaratmış, xalq mahnılarını solist, xor, fortepiano, xalq çalğı alətləri və müxtəlif tərkibli ansamblllar üçün işləmişdir.

Bəstəkar iki operanın müəllifidir. Bunlar "Bahadır və Sona", "Solğun çiçəklər" operalarıdır. Onun yaradıcılığında operetta janrı əsas yer tutur. On bir musiqili komediyanın ("Məhəbbət gülü", "Ulduz" , "Özümüz bilərik", "Olmadı elə, oldu belə", "Milyonçunun dilənçi oğlu", "Hardasan ay subaylıq", "Sevindik qız axtarır", "Həmişəxanım", "Gurultulu məhəbbət", "Subaylarınızdan görəsiniz", "Hərənin bir ulduzu") müəllifidir. Simfonik orkestr üçün "Gənclik" və "Vətən" simfoniyaları, "Bayatı-Şiraz" simfonik muğamı, simfonik poema və süitaları, "Bayram üverturası", violonçel və fortepiano ilə simfonik orkestr üçün ikili konsert və digər sanballı əsərlərin müəllifidir. Xalq çalğı alətləri orkestri üçün yazmış olduğu "Rəqs", "Cəngi", "Marş", "Qaytağı", "Fantaziya", "Yallı", tar ilə xalq çalğı alətləri orkestri üçün №1, №2, №3 konsertləri, tar ilə orkestr üçün "Daimi hərəkət", kamança və orkestr üçün "Tarantella", qanun ilə orkestr üçün "Poema", saz və müğənni ilə xalq çalğı alətləri orkestri üçün "Aşıqvari", 200-ə qədər mahnı və romansları da daxil olmaqla, geniş yaradıcılığı Azərbaycan musiqisində mühüm yer tutur.

Vokal musiqisi janrları, xüsusilə mahnı və romans bəstəkarın yaradıcılığının aparıcı sahələrindəndir. Bəstəkar həm Azərbaycan klassik ədəbiyyatına, həm də müasiri olduğu ədəbi nümayəndələrin yaradıcılığına müraciət edərək, vokal əsərlərinin məzmun baxımdan zənginliyini yaratmağa nail olmuşdur. Bəstəkar əsərlərində poetik mətnin məzmunundan irəli gələn xüsusiyyətləri öz təfəkkürünün düşüncələri və duyğuları ilə qovuşdurmuş, musiqi dilinin gözəlliyi ilə bu janrın rəngarəngliyini xalqa çatdırmış və sevdirmişdir. Əruz vəzninin xüsusiyyətlərinə bələd olması S.Ələsgərovun romans janrında yaratdığı nümunələrdə musiqi və qəzəlin bir-birini tamamlamasında özünü büruzə verir. Bəstəkarın romansları insan

təfəkkürü və hisslərini musiqi vasitəsilə qabarıq ifadə edir. Bütün bu hissləri qavrayaraq, musiqiyə çevirmək və geniş dinləyici kütləsinə çatdırmaq bəstəkarın peşəkarlığının və parlaq istedadının baris nümunəsidir.

Süleyman Ələsgərovun mahnıları da öz gözəlliyi ilə milli mədəniyyətimizin inkişafında böyük rol oynayır. Bəstəkar demək olar ki, bütün yaradıcılığı boyu bu janra müraciət etmiş, mahnılarında müxtəlif mövzuları əks etdirən, rəngarəng məzmuna malik olan melodiyalar yaratmışdır. Onun mahnılarında vətənə sevgi, xalqın ictimai-siyasi həyatı, mənəviyyatı, zəhmətkeş insanların fədakar əməyi öz əksini tapır.

Bəstəkarın mahnı və romansları musiqi forması, melodiya, harmoniya, ritm baxımından zəngin olub, milli xüsusiyyətləri ilə diqqəti cəlb edir. Mahnılarının araşdırılması S.Ələsgərovun vokal üslubunun əsas xüsusiyyətlərini aşkarlamağa zəmin yaratmaqla yanaşı, onların bədii keyfiyyətlərini də üzə çıxarmağa imkan verir.

S.Ələsgərovun kamera-vokal yaradıcılığının xüsusi olaraq araşdırılması musiqişünaslıqda aktuallıq təşkil edən mövzulardandır. Müasir dövrdə mahnı və romans kimi geniş yayılmış, həcminə görə kiçik olan, lakin daşıdığı əhəmiyyətə və obraz zənginliyinə görə fərqlənən mahnıların yazılması bəstəkarlardan böyük sənətkarlıq tələb edir. Bu baxımdan S.Ələsgərovun yaradıcılığının öyrənilməsi aktualdır və musiqişünaslıq elminin diqqət mərkəzində olan problemlərdəndir.

Azərbaycan musiqişünasları tərəfindən S.Ələsgərovun yaradıcılığının müxtəlif sahələri tədqiq edilmişdir. Bu baxımdan bəstəkarın yaradıcılığına həsr olunmuş ilk əsər S.Qasımovanın «Сулейман Алескеров»[1] ("Süleyman Ələsgərov") adlı kitabı olmuşdur. 1974-cü ildə nəşr olunan bu kitabda həmin illərə qədər bəstəkarın həyat və yaradıcılıq yolu, sənətə baxışları, müxtəlif janrlarda yazdığı əsərləri, o cümlədən mahnı və romansları ilə bağlı

[1] Касимова, С.Дж. Сулейман Алескеров / С.Д.Касимова. – Баку: Азернешр, – 1974. – 32 с.

təhlillər aparılmış və musiqişünaslıq yanaşması baxımından əsərlərin səciyyəvi xüsusiyyətləri haqqında məlumatlar öz əksinni tapmışdır.

V.Xəlilovun "Süleyman Ələsgərov"[2] kitabında bəstəkarın həyat və yaradıcılıq yolundan, xüsusilə pedaqoji fəaliyyətindən, musiqi tədrisində istifadə olunan əsərlərindən bəhs edilir.

E.Babayevin "Süleyman Ələsgərov" adlı kitabında bəstəkarın ömür yolunun səhifələri, yaradıcılıq həyatındakı əsas hadisələr, müxtəlif janrlarda yazılmış ən əhəmiyyətli əsərləri maraqlı və obrazlı şəkildə şərh olunur[3].

S.Ələsgərov haqqında S.Təhmirazqızının "Süleyman Ələsgərov xatirələrdə" kitabında bəstəkarın yaradıcılığının əsas istiqamətləri, son illərdəki yaradıcılıq fəaliyyəti, onun yaradıcı bir şəxsiyyət kimi maraqlandıran mövzuları, bəstəkarla ünsiyyətdə olan insanların xatirələri işıqlandırılmışdır[4]. Sənət dostlarının, müxtəlif peşə adamlarının və həmyerlilərinin, ailə üzvlərinin, doğmalarının ürək sözləri kitabın müvafiq bölmələrində əks etdirilmişdir.

S.Ələsgərovun əsərləri bir sıra musiqişünaslıq tədqiqatlarında bu və ya digər aspektlərdən araşdırılmışdır. Bəstəkarın yaradıcılıq fəaliyyətinin və əsərlərinin ümumi səciyyəsi Azərbaycan musiqi ədəbiyyatı üzrə həm uşaq musiqi məktəbləri, həm orta ixtisas, həm də ali musiqi məktəbləri üçün nəzərdə tutulan dərslik və dərs vəsaitlərinə daxil edilmişdir[5], [6], [7], [8].

---

[2] Xəlilov, V.C. Bəstəkar Süleyman Ələsgərov / V.C.Xəlilov. – Bakı: İşıq, – 1989. – 95 s.

[3] Babayev, E.Ə. Süleyman Ələsgərov / E.Ə.Babayev. – Bakı: Azərnəşr, – 1992. – 18 s.

[4] Təhmirazqızı, S. Süleyman Ələsgərov xatirələrdə / S.Təhmirazqızı. – Bakı: Təfəkkür, – 2002. – 390 s.

[5] Azərbaycan musiqi tarixi [5 cilddə] / tərt. ed. Z.Səfərova – Bakı: Elm, – c. 2. – 2017. – 582 s.

[6] Azərbaycan musiqi tarixi [5 cilddə] / tərt. ed. Z.Səfərova – Bakı: Elm, – c. 3. – 2018. – 751 s.

[7] Qasımova, S.C., Bağırov, N.B. Azərbaycan sovet musiqi ədəbiyyatı / S.C.Qasımova, N.B.Bağırov. – Bakı: Maarif, – 1984. – 221 s.

[8] Касимова, С.Дж., Багиров, Н.И. Азербайджанская советская музыкальная литература / С.Дж. Касимова, Н.И.Багиров. – Баку: Маариф, – 1986. – 264 с.

Eyni zamanda müxtəlif mövzuları əhatə edən musiqişünaslıq tədqiqatlarında da S.Ələsgərovun yaradıcılığının ayrı-ayrı sahələri işıqlandırılmışdır.

İ.Əfəndiyeva mahnı janrına həsr olunmuş ilk kitabında "Новое в Азербайджанской песне" [9](Azərbaycan mahnılarında yeniliklər) S.Ələsgərovun "Ты – моя звезда" (söz: T.Əyyubovun) mahnısında muğama səciyyəvi olan improvizasiya üslubunun peşəkarlıqla istifadə edilməsini qeyd edir. Həmçinin tədqiqat işində vals janrının qeyri-adi şəkildə Azərbaycan bəstəkarların yaradıcılığında təcəssümü haqqında maraqlı qeydlər var. Məhz Azərbaycan bəstəkarları bu janra yenilik gətiriblər

İ.Əfəndiyevanın «Азербайджанская советская песня» ("Azərbaycan sovet mahnısı") [10] monoqrafiyasında bəstəkarın müxtəlif dövrlərdə bəstələnmiş rəngarəng mövzulu mahnılarına diqqət yetirilmişdir.

Ceyran Mahmudovanın "Azərbaycan bəstəkar mahnılarında poeziya ilə musiqi"[11] monoqrafiyasında milli bəstəkarlıq məktəbini təmsil edən bəstəkarlar ilə yanaşı, S.Ələsgərovun da bir neçə mahnısının mətn xüsusiyyətləri tədqiq olunmuşdur.

1961-ci ildə nəşr olunmuş «Азербайджанская музыка» ("Azərbaycan musiqisi") məqalələr toplusunda G.Z.Burşteynin Azərbaycanda mahnı janrının inkişafına həsr olunmuş "Azərbaycanda kütləvi mahnı"[12] və E.M.Nikomirovanın "Azərbaycan bəstəkarlarının kamera-vokal əsərləri"[13] məqalələrində S.Ələsgərovun da yaradıcılığı ilə bağlı dəyərli fikirlərə rast gəlinir.

---

[9] Эфендиева, И.М. Новое в азербайджанской песне / И.М.Эфендиева. – Баку: Азернешр, – 1974. – 64 с.

[10] Эфендиева, И.М. Азербайджанская советская песня / И.М.Эфендиева. – Баку: Азернешр, – 1983. – 150 с.

[11] Mahmudova, C.E. Azərbaycan bəstəkar mahnılarında poeziya ilə musiqi / C.E.Mahmudova. – Bakı: Mars-Print, – 2009. – 209 s.

[12] Бурштейн, Г.З. Массовая песня Азербайджане // – Москва: Азербайджанская музыка. Сборник статей, Музгиз, – 1961. – с. 256-276.

[13] Никомарова, Э.М. Камерные вокальные сочинения азербайджанских композиторов // – Москва: Азербайджанская музыка. Сборная статей, Музгиз, – 1961. – с. 247-255.

R.Zöhrabovun "Bəstəkarlarımız haqqında söz" elmi kütləvi kitabındakı "Məhsuldar yaradıcılıq" məqaləsində S.Ələsgərovun həyat və yaradıcılığı haqqında məlumat verilərək, onun yaradıcılığının janr müxtəlifliyinə malik olması qeyd edilərək işıqlandırılır[14].

Zemfira Səfərovanın tərtib etdiyi "Azərbaycan musiqi tarixi" kitabının üçüncü cildinə S.Ələsgərovun həyat və yaradıcılığının ümumi səciyyəsinə həsr olunmuş fəsil daxil edilmişdir[15].

Xanım Qaradağlı "Azərbaycan bəstəkarlarının operetta və musiqili komediyalarının inkişaf mərhələlərində fərqli üslub xüsusiyyətləri (XX əsrin II yarısı)" adlı elmi-tədqiqat işində S.Ələsgərovun musiqili komediyalarının xüsusiyyətlərinə toxunmuşdur[16] .

Azərbaycan musiqişünaslarının elmi məqalələrində də S.Ələsgərovun yaradıcılıq irsinə müraciət olunmuşdur. Bu baxımdan M.Aşurovun "S.Ələsgərovun sözsüz mahnılarının məqam xüsusiyyətləri"[17] , S.Şahbəddinovun "S.Ələsgərovun tar ilə xalq çalğı alətləri orkestri üçün bir nömrəli konsertində muğam üsullarının təzahürü"[18] , A.Sadıqovanın "S.Ələsgərovun balaban və orkestr üçün "Xəyalə dalarkən" əsərində məqam-intonasiya xüsusiyyətləri"[19], N.Mustafayevanın "Bəstəkar Süleyman Ələsgərov yaradıcılığının

---

[14] Zöhrabov, R.F. Bəstəkarlarımız haqqında söz / R.F.Zöhrabov. – Bakı: Şur, – 1995. – s. 83-88.

[15] Azərbaycan musiqi tarixi [5 cilddə] / tərt. ed. Z.Səfərova – Bakı: Elm, – c. 3. – 2018. – 751 s.

[16] Qaradağlı, X.A. Azərbaycan bəstəkarlarının operetta və musiqili komediyalarının inkişaf mərhələlərində fərqli üslub xüsusiyyətləri (XX əsrin II yarısı): / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2018. – 26 s.

[17] Aşurov, M.Ə. S.Ələsgərovun sözsüz mahnılarının məqam xüsusiyyətləri // – Bakı: Konservatoriya, – 2015. №4 (30), – s. 41-45.

[18] Şahbəddinov, S.S. S.Ələsgərovun tar ilə xalq çalğı aləti orkestri üçün 1 nömrəli konsertində muğam ifaçılıq üsullarının təzahürü // – Bakı: Konservatoriya, – 2015. №3 (29), – s. 28 – 35

[19] Sadıqova, A. S.Ələsgərovun balaban və orkestr üçün "Xəyala dalarkən" əsərində məqam-intonasiya xüsusiyyətləri // – Bakı: Konservatoriya, – 2015. №4 (30), – s. 46-50.

əsas istiqamətləri"[20] və "Süleyman Ələsgərov yaradıcılığında operetta janrına bir nəzər"[21], M.Əliyevanın "S.Ələsgərov yaradıcılğında xalq çalğı alətləri (qanun)"[22], A.Səfixanovanın "Süleyman Ələsgərov və xalq musiqisi" adlı[23] məqalələri diqqətəlayiqdir.

Süleyman Ələsgərovun yubiley tarixləri həmişə musiqi ictimaiyyətinin diqqət mərkəzində olmuşdur. Dövrü mətbuat səhifələrində müntəzəm şəkildə bəstəkar haqqında musiqişünasların məqalələri çap olunub. Bu baxımdan İ.Əfəndiyevanın[24], Z.Qafarovanın[25], L.Hüseynovanın[26], V.Xəlilovun[27], [28], [29], G.Vəzirovanın[30], [31], F.Xəlilzadənin[32], [33] , S.Təhmirazqızının[34],

---

[20] Mustafayeva, N.T. Bəstəkar Süleyman Ələsgərov yaradıcılığının əsas istiqamətləri // – Bakı: Konservatoriya, – 2014. №2 (24), – s. 25-30

[21] Mustafayeva, N.T. Süleyman Ələsgərov yaradıcılığında operetta janrına bir nəzər // – Bakı: Musiqi dünyası, – 2014. №4 (61), – s. 14-16.

[22] Əliyeva, M.S. Ələsgərovun yaradıcılığında xalq çalğı alətləri (qanun) // – Bakı: Konservatoriya, – 2012. №4 (18), – s. 5-9.

[23] Səfixanova, A. Süleyman Ələsgərov və xalq musiqisi // – Bakı: Konservatoriya, – 2014. №1 (23), – s. 19 - 22.

[24] Əfəndiyeva, İ.M. Musiqi mədəniyyətimiz və müasirlik. Seçilmiş məqalələr / İ.M.Əfəndiyeva. – Bakı: Renessans – A nəşr evi, – 2016. – 253 s.

[25] Кафарова, З.Г. Сулейман Алескеров – 90: Яркий представитель азербайджанской музыкальной культуры // Зеркало. – 2014, 8 марта. – с. 17.

[26] Hüseynova, L.Ş. Mahnı diqqət mərkəzindədir // – Bakı: Musiqi dünyası, – 2000. № 2 (3), – s. 3-9.

[27] Xəlilov, V.C. Bəstəkar Süleyman Ələsgərov / V.C.Xəlilov. – Bakı: İşıq, – 1989. – 95 s.

[28] Xəlilov, V.C. İlhamını xalqdan alan bəstəkar // Xalq qəzeti. – 2004, 25 fevral. – s. 7.

[29] Xəlilov, V.C. Qəlblərdə yaşayan insan, görkəmli bəstəkar // Mədəniyyət. – 2014, 21 fevral. – s. 11.

[30] Везирова, Г.Х. Сулейман Алескеров…штрихи по портрету / – Baky: Мусиги дюнясы, – 2012. №2 (51), – с. 69 – 70.

[31] Везирова, Г.Х. Памяти Сулеймана Алескерова // Зеркало. – 2014, 21 февраля. – с. 8.

[32] Xəlilzadə, F.F. Şuşa konservatoriyasının unudulmaz məzunu // Kaspi. – 1994, 22 fevral. – s. 6.

[33] Xəlilzadə, F.F. Şuşa böyük sənətkarlar yetişdirib: Onlardan biri də bəstəkar Süleyman Ələsgərovdur // Azərbaycan. – 2009, 22 fevral. – s. 8.

S.Qarabağlının[35], R.Süleymanovanın[36], R.Dünyamalıyevanın[37], T.Abbaslının[38], A.Asimqızının[39], X.Qocayevanın[40], A.Heydərovanın[41], Y.Vəliyevin[42], T.Əhmədalıların[43], [44] məqalələrini qeyd etmək mümkündür.

Musiqişünaslıq tədqiqatlarından bəlli olduğu kimi, S.Ələsgərovun yaradıcılıq yolu və müxtəlif janrlı əsərləri fərqli yanaşmalardan araşdırılmışdır. Bu tədqiqatlarda əsasən S.Ələsgərovun operettalarının və xalq çalğı alətləri orkestri üçün müxtəlif janrlı instrumental əsərlərinin təhlili aparılmışdır.

Lakin S.Ələsgərovun kamera-vokal yaradıcılığı xüsusi elmi-tədqiqat işi səviyyəsində araşdırılmamışdır. Bunu nəzərə alaraq, S.Ələsgərovun kamera-vokal əsərləri təqdim olunan dissertasiya işinin əsas mövzusunu təşkil edir. Təqdim olunan elmi işdə bəstəkarın romans və mahnılarının onun yaradıcılığındakı əhəmiyyətli rolunun öyrənilməsinə, musiqisinin muğamlarla və xalq musiqisi ilə bağlılığından irəli gələn əsas xüsusiyyətlərinin

---

[34] Təhmirazqızı, S. Üzeyir ruhlu sənətkar: Süleyman Ələsgərov // Mədəniyyət. – 2011, 23 fevral.

[35] Qarabağlı, S. Üzeyir bəyin istedadlı davamçısı // Xalq qəzeti. – 2009, 8 aprel. – s. 7.

[36] Süleymanova, R. Süleyman Ələsgərovun musiqi səhnə əsərləri // İki sahil. – 2021, 8 aprel.

[37] Dunyamalıyeva, R.R. Üzeyir ruhlu sənətkar: Süleyman Ələsgərov // Naxçıvan xəbərləri. – 2022, 30 mart.

[38] Abbaslı, T.H. Təbii konservatoriya tələbələrindən biri // Mədəniyyət. – 2013, 23 yanvar. – s. 12.

[39] Asimqızı, A. Süleyman müəllimin xidmətlərini unuda bilmirəm // Üç nöqtə. – 2013, 22 fevral. – s. 13.

[40] Qocayeva, X.Z. Yeniyetmələrin estetik tərbiyəsində Süleyman Ələsgərovun rolu // – Bakı: Dil və ədəbiyyat, – 2014. №1 (89), – s. 286-287.

[41] Heydərova, A. Süleyman Ələsgərov: Ona bəstəkarlıq ilhamı verən doğma yurdu idi... // – Bakı: Yeni mədəni-marif, – 2009. №4, – s. 73-74.

[42] Vəliyev, Y. Yubileyimi yalnız Şuşada keçirəcəyəm... Süleyman Ələsgərov – 90 // Mədəni həyat. – 2014. №2, – s. 41 – 43.

[43] Əhmədalılar, T.H. Ovqat dolu notlar // Mədəniyyət. – 2015, 23 yanvar. – s. 12.

[44] Əhmədalılar, T.H. Ulduzlu Ulduz: Ölməz operettalar, solmaz mahnılar müəllifi Süleyman Ələsgərov // Mədəniyyət. – 2014, 22 yanvar. – s. 13.

araşdırılmasına, bu janra gətirdiyi yeniliklərə və vokal musiqisi sahəsində əldə etdiyi cəhətlərin araşdırılmasına xüsusi diqqət yetirilmişdir. Bundan irəli gələrək, hazırkı işdə S.Ələsgərovun romans və mahnılarının dissertasiya səviyyəsində təhlil olunması həyata keçirilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Süleyman Ələsgərovun kamera-vokal yaradıcılığıdır. Tədqiqatın predmetini S.Ələsgərovun kamera-vokal yaradıcılığının özünəməxsus üslub xüsusiyyətlərinin öyrənilməsi, bəstəkarın yaradıcılığında vokal musiqi sahəsinin rolunun araşdırılması, onun mahnılarının əsas xüsusiyyətlərinin təhlil yolu ilə üzə çıxarılması təşkil edir. Bu kontekstdə tədqiqat predmetinə bəstəkarın romans və mahnılarının musiqi dilində milli xüsusiyyətlərinin təhlili və qanunauyğun cəhətlərinin aşkara çıxarılması, xalq musiqisi mənbələrinə və qaynaqlarına münasibətinin öyrənilməsi daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Süleyman Ələsgərovun kamera-vokal yaradıcılığının tədqiq edilməsi ilə onun mahnı və romanslarının musiqi dilinin məqam əsaslarının, melodika və forma quruluşunun öyrənilməsindən ibarətdir. Bu məqsədə çatmaq üçün, dissertasiya işində aşağıdakı vəzifələrin həlli qarşıya qoyulur:

– Azərbaycan professional musiqisində kamera-vokal janrının yaranması və təşəkkülü haqqında məlumatlar vermək;

– S.Ələsgərovun yaradıcılığı və onun kamera-vokal musiqisinin mövzu dairəsinin araşdıraraq əsas üslub xüsusiyyətlərini göstərmək;

– S.Ələsgərovun vokal əsərlərinin mövzu dairəsi və janr rəngarəngliyi baxımından təhlil etmək;

– Bəstəkarın mahnılarının əsasını təşkil edən söz və musiqinin vəhdətinin, onların qarşılıqlı əlaqəsini, musiqi formasını, məqam, ritmika və melodik dilini araşdırmaq;

– Bəstəkarın kamera-vokal yaradıcılığının özünəməxsus xüsusiyyətlərini aşkarlamaq və ümumiləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən,

tarixi-nəzəri və müqayisəli təhlil metodundan istifadə edilmişdir. Dissertasiyanın metodoloji əsasını musiqi nəzəriyyəsi ilə bağlı tədqiqatlar, musiqişünas alimlərin nəzəri müddəaları təşkil edir. Azərbaycan musiqişünaslarının – Üzeyir Hacıbəylinin[45], [46], [47], [48], Məmmədsaleh İsmayılovun[49], [50], [51], [52], İmruz Əfəndiyevanın[53], [54], [55], Tamilla Hüseynovanın[56], [57], [58], Ceyran Mahmudovanın[59], [60], [61] və

---

[45] Hacıbəyov, Ü.Ə. Əsərləri [II cild] / – Bakı: Azərb. SSR EA, – 1965. – 408 s.

[46] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Apostrof, – 2010. – 176 s.

[47] Гаджибеков, У.А. О музыкальном искусстве Азербайджана / У.А.Гаджибеков. – Баку: Азернешр, – 1966. – 150 с.

[48] Гаджибеков, У.А. Основы азербайджанской народной музыки / У.А.Гаджибеков. – Баку: Изд-во АН Азерб. ССР, – 1945. – 112 с.

[49] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları / M.C.İsmayılov. – Bakı: İşıq, – 1984. – 100 s.

[50] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər / M.C.İsmayılov. – Bakı: Elm, – 1991. – 117 s.

[51] Исмайлов, М.Дж. Ладовые особенности азербайджанской народной музыки // – Баку: Учѐные записки Азгосконсерватории им. Уз.Гаджибекова, Аз.Гос.Кон, – 1969. № 2 (7), – стр. 3-33

[52] Исмайлов, М.Дж. Народная музыка Азербайджана / Л.В.Карагичева. – Москва: Советский композитор, – 1961. – с. 5-63

[53] Эфендиева, И.М. Новое в азербайджанской песне / И.М.Эфендиева. – Баку: Азернешр, – 1974. – 64 с.

[54] Эфендиева, И.М. Азербайджанская советская песня / И.М.Эфендиева. – Баку: Азернешр, – 1983. – 150 с.

[55] Эфендиева, И.М. Мугам и композиторское творчество / И.М.Эфендиева // – Баку: Ирс-наследия, – 2006. №2-3, – с. 44-45.

[56]Гусейнова, Т.М. Азербайджанская камерная вокальная музыка / Т.М.Гусейнова. – Баку: Орхан, – 2005. – 137 с.

[57]Гусейнова, Т.М. Камерно-вокальные циклы в Азербайджанской музыке / Т.М.Гусейнова. – Баку: Ширваннешр, – 2005. – 191 s.

[58] Hüseynova, T.M. Məqalələr, rəylər / T.M.Hüseynova. – Bakı: Səda, – 2011. – 196 s.

[59] Mahmudova, C.E. Mahnının qoşa qanadı-poeziya və musiqi / C.E.Mahmudova. – Bakı: Mars-Print, – 2013. – 244 s.

[60] Mahmudova, C.E. Azərbaycan xalq və bəstəkar mahnılarının mətn xüsusiyyətləri / C.E.Mahmudova. – Bakı: ADPU, – 2014. – 122 s.

[61] Mahmudova, C.E. Azərbaycan bəstəkar mahnılarında poeziya ilə musiqi / C.E.Mahmudova. – Bakı: Mars-Print, – 2009. – 209 s.

başqalarının Azərbaycan musiqisinə, bilavasitə bəstəkar yaradıcılığına və milli musiqinin nəzəri əsaslarına həsr olunmuş tədqiqatları dissertasiyanın metodoloji bazasına çevrilmiş və adları sadalanan musiqişünasların elmi müddəalarından bir mənbə kimi istifadə olunmuşdur. Dissertasiyada həm də xarici tədqiqatçılardan L.Mazelin[62], V.Tsukkermanın[63], M.Sposobinin[64], Y.Tyulinin[65] elmi-nəzəri tədqiqat əsərlərinə əsaslanılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- S.Ələsgərovun mahnı yaradıcılığı mövzu və ideya məzmununa görə vətən haqqında mahnılar, məhəbbət mövzusunda mahnılar, Azərbaycan təbiəti, onun əsrarəngiz gözəlliyini tərənnüm edən mahnılar, əmək qəhrəmanlarına həsr edilmiş mahnılar, toy mahnıları kimi qruplaşdırılır;
- Mahnı və romanslarının kompozisiya quruluşu üçhissəli formaya, ikihissəli formaya və bənd-nəqərat formasına əsaslanır;
- Kamera-vokal əsərlərinin melodiyalarında milli məqamlara istinad edilir;
- Bəstəkarın yaradıcılığına xas olan cəhət kamera-vokal əsərlərinin musiqisində melodiya və harmoniyanın vəhdəti, lirik-epik ifadə tərzində olmasıdır;
- İnstrumental müşayiət kamera-vokal əsərlərində melodiyaya harmonik fon təşkil edir və zəngin akkord tərkibi melodiyanın daha ifadəli səslənməsinə imkan yaradır;
- Əksər mahnılarında poetik və musiqi formasının vəhdətdə olması aydınlaşdırılır;

---

62 Мазель, Л.А. Вопросы анализа музыки / Л.А.Мазель. – Москва: Советский композитор, – 1991. – 375 с.

63 Цуккерман, В.А. Анализ музыкальных произведений / В.А.Цуккерман. – Москва: Музыка, – 1980. – 296 с.

64 Способин, И.В. Музыкальная форма / И.В.Способин. – Москва: Музыка, – 1984. – с. 262-292.

65 Тюлин, Ю.Н. Строение музыкальной речи. / Ю.Н.Тюлин. – Ленинград: Музгиз, – 1969. – 173 с.

- Lirik səpkili mahnılarında xalq mahnılarına xas keyfiyyətlər özünü göstərir və burada xalq mahnısından daha çox, romans janrının xüsusiyyətləri ön plana çıxır;
- Mahnılarında mətn xüsusiyyətləri xalq mahnılarında olduğu kimi, sabit və dəyişkən heca sayına görə sistemləşdirilir;
- Klassik major-minor ladlarını Azərbaycan xalq musiqi məqamları ilə qovuşdurur və fərdi musiqi üslubunu yaratmağa nail olur.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq:

- Süleyman Ələsgərovun kamera-vokal yaradıcılığı dissertasiya səviyyəsində hərtərəfli tədqiq edilmiş, əsərlərinin musiqi dili və bəstəkarın üslub xüsusiyyətləri aşkara çıxarılmışdır.
- Bəstəkarın müxtəlif janrlı vokal əsərləri, o cümlədən mahnı və romansları təhlil edilmiş, bu sahədə onun yaradıcılığının mövzu dairəsi, janr xüsusiyyətləri, xalq musiqisinə və muğama yaradıcı münasibəti müəyyən edilərək üzə çıxarılmışdır.
- Mahnıların əsasını təşkil edən söz və musiqinin vəhdəti, onların qarşılıqlı əlaqəsi, musiqi forması, harmoniya, məqam, ritmika və melodik dilinin tədqiqi əsas təhlil obyektinə çevrilmişdir.
- Azərbaycan xalq musiqisindən istifadə prinsiplərinin bəstəkarın musiqi dilinə təsiri nəticəsində musiqi üslubunun milli çalarlarla yeniləşməsi, melodiya, intonasiya və ritmik xüsusiyyətlərin milli ifaçılıq sənətində rolu tədqiq olunmuşdur.
- S.Ələsgərovun mahnılarında məqamların Avropa janrlarına daxil olaraq qovuşması bəstəkarın ənənələri davam etdirməsi istiqamətində yeniliyi kimi qavranıla bilər.
- Bəstəkarın əsərlərinin bədii keyfiyyətləri, bəstəkarın yenilik axtarışları, xalq musiqisi və muğam ənənələrindən bəhrələnməsi sayəsində irəli gələn xüsusiyyətləri

araşdırılmışdır. Süleyman Ələsgərovun Azərbaycanda mahnı janrının inkişafı baxımından bu janra gətirdiyi yenilik və onun yaradıcılığında malik olduğu əhəmiyyət dissertasiya işi səviyyəsində öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, burada ilk dəfə olaraq Süleyman Ələsgərovun kamera-vokal yaradıcılığı ətraflı tədqiq edilir və bu müasir mərhələdə musiqi elmini bəstəkar yaradıcılığına daxil olan müəyyən sahənin öyrənilməsinə həsr olunmuş yeni materialla zənginləşdirməyə imkan verir.

Aparılan təhlillərin gələcək elmi-tədqiqat işləri və milli bəstəkar yaradıcılığının öyrənilməsi sahəsi üçün əsas zəmin olması tədqiqatın praktiki əhəmiyyətini təşkil edir. Tədqiqatın materiallarından milli kamera-vokal musiqinin öyrənilməsi ilə bağlı elmi-tədqiqat işlərində və mühazirələrdə istifadə oluna bilər. Bəstəkarın kamera-vokal yaradıcılığının tədqiqi milli musiqişünaslığı tarixi-nəzəri cəhətdən zənginləşdirir. Dissertasiya musiqi təmayüllü ali və orta ixtisas məktəblərinin nəzəri və praktiki kurslarında – “Azərbaycan musiqi tarixi”, “Azərbaycan xalq musiqisinin əsasları”, “Musiqi əsərlərinin təhlili” və musiqi sahəsini əhatə edən digər fənlərin tədrisində faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas nəticələri və müddəaları Azərbaycan, Rusiya kimi ölkələrin beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə öz əksini tapmışdır. Mövzu ilə bağlı məruzələr bir çox elmi-nəzəri konfranslarda dinlənilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Təqdim olunan dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Musiqi tarixi” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya “Giriş”, üç “Fəsil”, yeddi “Paraqraf”, “Nəticə”, “İstifadə edilmiş ədəbiyyat siyahısı” və “Əlavələr”dən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, “Giriş” 12 səhifə 19 484 işarədən, I fəsil 36 səhifə 70 079 işarədən, II fəsil 36

səhifə 42 278 işarədən, III fəsil 47 səhifə 63 032 işarədən, "Nəticə" isə 8 səhifə 13 521 işarədən ibarətdir. Tədqiqat işinin ümumi həcmi isə "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr" istisna olunmaqla, 139 səhifə və 208 394 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu haqqında məlumat verilir.

Dissertasiya birinci fəsli "**Süleyman Ələsgərovun yaradıcılığı Azərbaycan kamera-vokal musiqisi kontekstində"** adlanır və üç paraqrafdan ibarətdir. "**Azərbaycan bəstəkarlarının yaradıcılığında kamera-vokal musiqisinin formalaşdığı tarixi mühit və inkişaf mərhələləri"** adlı birinci paraqrafda Azərbaycan bəstəkarlarının kamera-vokal musiqisinin keçdiyi inkişaf tarixinə qısa nəzər yetirilir və burada bəstəkarın yaradıcılığının formalaşdığı tarixi mühit diqqətə çatdırılır.

Məlumdur ki, professional bəstəkarlıq məktəbimizin nümayəndələri kamera-vokal musiqisində çoxlu sayda əsərlər bəstələmiş və həmin əsərlər milli musiqimizin qaynaqlarına bağlılığı, onun elementlərinə əsaslanması baxımından, eləcə də öz orijinallığına görə diqqəti cəlb edir və bu əsərlər öz janrının ən parlaq nümunələrindəndir. Ü.Hacıbəylinin, A.Zeynallının, Q.Qarayevin, S.Rüstəmovun, F.Əmirovun, C.Cahangirovun, S.Ələsgərovun, R.Hacıyevin, T.Quliyevin, Z.Bağırovun, V.Adıgözəlovun, X.Mirzəzadə, A.Məlikovun, E.Sabitoğlunun, O.Kazıminin, R.Mirişlinin, E.İbrahimovanın, R.Qasımovanın və başqalarının bu sahədə yaratdığı nümunələr Azərbaycan musiqisində bu janrın inkişafında mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan kamera-vokal musiqisində yazılan əsərlər janr xüsusiyyətlərinə görə də zəngindir. Belə ki, burada həm dünya musiqisi ənənələrindən yararlanılmış, eyni zamanda Azərbaycan

kamera-vokal musiqisi də öz spesifik xüsusiyyətləri dünya musiqi mədəniyyətinə yeniliklər bəxş etmişdir. Burada ilk dəfə olaraq qəzəl-romans janrının yaranması, eləcə də Qərbi Avropa kamera-vokal musiqisində xas olan romans-ballada janrından Azərbaycan bəstəkarlarının özünəməxsus şəkildə istifadə etmələri də kamera-vokal musiqisimizin xarakterik xüsusiyyətlərindən biridir. Bütün bu məqamlar da S.Ələsgərovun yaradıcılığında kamera-vokal musiqisi nümunələrinin yaranmasında, bəstəkarın özünəməxsus musiqi dilinin formalaşmasında mühüm rol oynayan amillərdən olmuşdur.

Birinci fəslin ikinci paraqrafı **"Süleyman Ələsgərovun yaradıcılığı kontekstində onun kamera-vokal əsərlərinin xüsusiyyətləri"** adlanır. Burada görkəmli bəstəkarın həyat və yaradıcılığının bəzi xüsusiyyətlərinə diqqət yetirilmiş və onun kamera-vokal musiqisinin bəzi üslub xüsusiyyətləri təhlil edilmişdir.

S.Ələsgərov 1924-cü ildə Şuşa şəhərində anadan olmuşdur və 1935-ci ildə Şuşa Musiqi Texnikumunda tar sinfində dərs almışdır. Onun ilk tar müəllimi bəstəkar Qəmbər Hüseynli, sonra isə Rəsul Əsədov olmuşdur. Texnikumda musiqi nəzəriyyəsini Fatma Zeynalova və Nikolay Sergeyeviç Sergeyevdən öyrənir. 1940-cı ildə təhsilini davam etdirmək üçün Bakı şəhərinə gəlir və bu dövrdən etibarən onun geniş yaradıcılıq yolu başlayır. Görkəmli bəstəkarın sənət yolunun formalaşmasında dahi bəstəkarımız Ü.Hacıbəylinin böyük rolu olmuşdur. Məhz Ü.Hacıbəylinin rəhbərliyi altında o, Azərbaycan xalq musiqisinin xüsusiyyətlərini dərindən öyrənmişdir.

Bəstəkarın yaradıcılığı müxtəlif janrları əhatə etməsi ilə diqqəti cəlb edir. Belə ki, bəstəkar on bir musiqili komediyanın müəllifidir. S.Ələsgərov yaradıcılığında opera janrına da müraciət etmişdir. Bəstəkar iki operanın müəllifidir və həmin əsərlərdə mahnı janrının təsiri hiss olunur. Hər iki operada Qərbi Avropa və rus klassik bəstəkarlarının zəngin, sərrast ənənələrinə əsaslanılmış və Azərbaycan vokal məktəbinin xüsusiyyətləri qorunub saxlanılmışdır.

Bəstəkar həmçinin yaradıcılığında F.Əmirovun ənənələrindən yararlanmış və "Bayatı-Şiraz" adlı məşhur simfonik muğamını yazmışdır. Onun həmçinin "Simfonik orkestr üçün suita", "Simfonik poema", "Bayram üverturası", violonçel, fortepiano və orkestr üçün

“İkili konsert”, “Vətən” simfoniyası, “Vətənə eşq olsun kantatası” və digər əsərləri də mövzusuna, janr yeniliyinə, formasına görə diqqəti cəlb edir.

S.Ələsgərovun yaradıcılığında kamera-vokal musiqisi xüsusi yer tutur və Azərbaycan musiqi mədəniyyətində bu janrın inkişafında görkəmli bəstəkarın böyük xidmətləri olmuşdur. O, demək olar ki, bütün yaradıcılığı boyu bu janra müraciət etmiş, müxtəlif məzmunlu rəngarəng mahnı və romanslar yaratmışdır. Eyni zamanda o, Azərbaycan kamera-vokal musiqisində ballada janrının yaradıcılarından biridir. Muğamları dərindən bilən sənətkar onun müxtəlif intonasiya xüsusiyyətlərindən məharətlə, zövqlə istifadə edirdi.

Dissertasiyanın ikinci fəsli “**Süleyman Ələsgərovun vokal əsərlərində musiqi dilinin səciyyəvi cəhətləri”** adlanır və iki fəsil üç paraqrafdan ibarətdir.

“**Klassik şairlərin sözlərinə yazılmış qəzəl-romansların və ballada romansın obraz xüsusiyyətləri”** adlanan birinci paraqrafda S.Ələsgərovun klassik şairlərimizin sözlərinə yazdığı romanslar və ballada romansın xüsusiyyətlərinə diqqət yetirilmişdir. “Sərvi xuramanım mənim” (N.Gəncəvinin sözlərinə), “Vətənimdir” (M.Füzulinin sözlərinə), “Neylərəm” (İ.Nəsiminin sözlərinə), “Oynasın” (M.P.Vaqifin sözlərinə), “Nə mən səndən nə sən məndən” (Q.Zakirin sözlərinə), “Bilmirəm” (M.Ə.Sabirin sözlərinə), “Qafqaz” (A.S.Puşkinin sözlərinə), adlı qəzəl-romansları onun klassik şairlərimizin sözlərinə yazdığı əsərləridir. Bu əsərlər rəngarəngliyinə, musiqinin ifadə vasitələrinin zənginliyinə və özünəməxsusluqla istifadəsinə görə seçilir.

S.Ələsgərovun M.Füzulinin sözlərinə yazdığı “Vətənimdir” qəzəl-romansı dahi şairin vəfatının 400 illiyinə ithaf edilmişdir və ilk ifaçısı Bülbül olmuşdur. Romans “b” mayəli şüştər məqamı üzərində yazılmışdır. Romans giriş, bənd və nəqəratdan ibarətdir. Cümlələr kvadrat quruluşludur və dörd xanəlidir. Burada melodiya dalğavarı inkişaf prinsipinə əsaslanır. Həmçinin bu inkişaf prinsipi kimi sekvensiyanın rolunu qeyd edirik. Nəqərat isə girişin melodiyası

üzərində səslənir və bir daha sanki mövzunu təsdiq edərək əsərdə qapalılıq yaradır.

S.Ələsgərovun klassik şairlərimizin sözlərinə yazdığı əsərlər arasında M.F.Axundovun şeirinə bəstələdiyi romans-balladası bu janrda yazılmış orijinal kompozisiyadır. Məlum olduğu kimi, ballada qəhrəmani və dastan xarakterli vokal əsərdir. S.Ələsgərov da romans və ballada kimi janrların xüsusiyyətlərini cəmləşdirərək özünəməxsus əsər yaratmışdır. Romans-ballada sadə üçhissəli formada yazılmışdır.

M.Ə.Sabirin sözlərinə S.Ələsgərov tərəfindən yazılmış "Bilmirəm" qəzəl-romansı sadə ikihissəli formaya malikdir . Poetik mətndən bəlli olduğu kimi, məzhəkəli xarakterə malik olan bu mahnı instrumental girişlə başlayaraq koda ilə tamamlanır. İki hissəli formanın birinci hissəsi, birinci periodu olan "A" mahnının bəndi, ikinci hissəsi, ikinci periodu olan "B" isə nəqəratıdır. Mahnı 6/8 ölçüdə, şur məqamında, "Moderato" tempindədir. Eyni zamanda poetik mətndən irəli gələn məzhəkəli xarakteri bəstəkar oynaq ritm vasitəsilə çatdıra bilmişdir. Burada rəngarəng tonallıqlardan istifadə, məqamın müxtəlif pərdələri ətrafında gəzişmə, improvizasiyalılıq əsas səciyyəvi xüsusiyyət rolunda çıxış edir.

İkinci fəslin ikinci paraqrafı isə **"XX əsrin şairlərinin sözlərinə yazdığı romansların musiqi dilinin səciyyəvi cəhətləri"** adlanır və burada S.Ələsgərovun müxtəlif şairlərimizin şeirlərinə yazdığı romanslar təhlil olunmuşdur. Qeyd edək ki, bu romanslar da müxtəlif məzmunlu olması ilə diqqəti cəlb edir. Nümunə üçün bəstəkarın 1942-ci ildə Ş.Əliyevin sözlərinə yazdığı "Gözlə məni" romansı müharibə illərinə həsr olunmuşdur. Burada döyüş bölgəsində vuruşan əsgərin öz sevgisinə sadiqliyi, vəfası tərənnüm olunur. Romans fortepianonun kiçik girişi ilə başlayır və variantlı formada təqdim olunur. Əsərdə verilən xırda notlar əsərə xüsusi rəngarənglik verir. Burada vokal partiyanı iki hissəyə ayıra bilərik. Əsərdə melodiya olduqca həzin şəkildə təqdim olunur və həsrət hislərini ifadə edir. Digər bir romans isə M.Müşfiqin sözlərinə yazılmış "Küsmərəm" əsəridir. Bu romans da olduqca lirik xarkterə malikdir, sadə iki hissəli formada yazılmışdır. Giriş ikihissəli

formanın birinci periodunda (A) olan cavab cümləsinin motivinə əsaslanır. Bu hissədə biz müxtəlif akkordların ardıcıl şəkildə istifadə edilməsini müəyyənləşdirə bilərik. Romansın ikinci hissəsi isə özündə kulminasiyanı əks etdirir və saf, ülvi məhəbbəti tərənnüm edir.

C.Cabbarlının sözlərinə yazılan digər romans isə "Yada düşdü" vokal əsəridir. Burada da lirik hisslərin təccəssümü, onların əsərin xarakterində aparıcı yeri tutması qeyd olunmalıdır. S.Ələsgərov da bu hissləri dinləyiciyə çatdırmaq üçün müxtəlif ifadə vasitələrindən istifadə etmişdir. "Yada düşdü" romansı sadə üçhissəli formada yazılmışdır. Sadə üçhissəli formanın birinci hissəsi periodunun sual cümləsi "Gördüm üzünü baxçada laləm yada düşdü" sözlərilə başlayaraq segah məqamında T-II-$II_{65}$-$D_{65}$-T-T funksional akkordlar ardıcıllıqlarından ibarətdir. Əsərin B hissəsi isə romansın kulminasiya hissəsini təşkil edir və inkişaf xəttini özündə əks etdirir.

Dissertasiyanın sonuncu fəsli "**Süleyman Ələsgərovun müxtəlif məzmunlu mahnılarının melodik və forma quruluş xüsusiyyətləri"** adlanır və burada görkəmli bəstəkarın mahnı yaradıcılığına nəzər yetirilmişdir. Bu fəsil üç paraqrafdan ibarətdir. **"Əmək qəhrəmanlarına həsr olunmuş mahnılarda musiqi dili və poetik mətn arasında əlaqənin xüsusiyyətləri"** adlı paraqrafdan bəstəkarın əmək qəhrəmanlarına həsr edilən mahnıları təhlil edilmişdir. Qeyd etmək lazımdır ki, bəstəkarın əksər mahnıları əmək, vətənpərvərlik və lirik mövzulara həsr olunmuşdur. Bəstəkar da hər bir mövzunun spesifik xüsusiyyətlərini böyük ustalıqla çatdırmağa nail olmuşdur. Əlbəttə, burada əsrlərlə yaşı olan Azərbaycan xalq mahnılarının xüsusiyyətlərinin dərindən öyrənilməsi və bilməsi mühüm rol oynamışdır. Bəstəkar əmək mövzusunda 30-dan çox mahnı yazmışdır. S.Ələsgərov daima müxtəlif təsərrüfat sahələrində hünər göstərən, uğur qazanan əmək fədakarlarını daim nəzərdə saxlamış və onları daha da ruhlandıran gözəl mahnılar bəstələmişdir.

Belə mahnılardan biri də Sosialist Əməyi Qəhrəmanı, neftçi İ.Hüseynova ithaf olunan (sözləri M.Arazındır) "Hünər nəğməsi"dir. Şeirdə neftçinin əməksevərliyi, öz sənətinə məhəbbətlə yanaşması tərənnüm olunur. Bəstəkar da mövzudan irəli gələrək gözəl

melodiyaya malik mahnı bəstələmişdir. “Hünər nəğməsi” mahnısı bənd-nəqərat formasındadır. Mahnının həm bəndi, həm də nəqəratı 11 hecalıdır. Əsər şüştər məqamı üzərində yazılmışdır, 6/8 ölçü və marş ritmində bəstələnmişdir. Mahnıda maraqlı məqamlardan biri də xordan istifadə edilməsidir. Xor solo partiyada verilmiş melodiyanı təkrar edir.

Bəstəkarın əmək mövzusunda bəstələnmiş silsilə mahnılarından biri də sözləri Tahir Taisoğluna aid “Torpağın arzusu” mahnısıdır. Burada maraqlı xüsusiyyət mahnıda hər iki məqamın qarşılaşdırılmasıdır. Bununla mahnıda müəyyən rəngarənglik əldə edilir. Mahnı bənd və nəqəratdan ibarətdir. Bənd özü iki hissəllidir: A+B. Hər hissə müxtəlif məqamlara əsaslanır. Birinci hissə rast, ikinci hissə şüştər üzərində yazılmışdır. Nəqərat da ikihissəllidir. Burada ikihissəlilik məqam dəyişkənliyinə əsaslanır. Birinci hissə rast, ikinci hissə şüştər məqamında qurulur.

Üçüncü fəslin ikinci paraqrafı **“Vətənpərvərlik mövzulu mahnılarda məzmun və musiqi dilinin forma quruluşuna təsiri”** adlanır. Qeyd edək ki, bəstəkarın yaradıcılığında Vətənin tərənnümünə həsr edilən əsərlər mühüm yer tutur. Onun mahnıları da bu baxımdan istisna deyildir. Onun bu səpkidə yazılan musiqi əsərlərinə “Şuşa”, ”Mingəçevir”, ”Naftalandadır”, “Göy-göl” kimi mahnıları daxildir. Sözləri Ə.Ziyatlıya aid olan “Göy-göl” mahnısında bu mövzuda yazılan məşhur mahnılardan biridir. Əsər bənd-nəqərat formasında yazılmışdır. Mahnı xalq ruhuna yaxın bir tərzdə yazılmışdır və ifa baxımdan sadəliyi ilə fərqlənir. Mahnı “f” tonikalı şur məqamında yazılmışdır.

Bəstəkarın qəhrəmanlıq mövzusunda yazdığı ən gözəl vokal əsərlərindən biri də “Naməlum əsgər haqqında ballada”dır. Sözləri şair Hikmət Ziyaya məxsusdur. Əsər 4/4 ölçüdə, “Maestoso tempindədir. Ballada b-moll tonallığında yazılmışdır. Ballada üç bənddən ibarətdir. Hər bənd major tonika ilə bitir. Musiqi formasının birinci və ikinci bölməsi bənd, üçüncü bölməsi isə nəqərat kimi verilmişdir. Birinci bənddə musiqi formasının birinci və ikinci bölmələrinin sözləri müəllifin dilindən, üçüncü bölmədən başlayaraq balladanın sonuna qədər olan sözlər isə naməlum əsgərin dilindən

verilir. Balladanın məqam və harmonik dili dolğunluğu ilə diqqəti cəlb edir.

**"Lirik məzmunlu mahnılarda musiqi formasının, melodik və harmonik dilin əhəmiyyəti"** adlı sonuncu paraqrafda S.Ələsgərovun lirik mövzulu mahnıları təhlil edilmişdir və bu əsələr onun yaradıcılığında əhəmiyyətli yerlərdən birini tutur. Bəstəkarın mahnıları əsasən sadə ikihissəli və bənd-nəqərat formasını əhatə edir. S.Ələsgərovun lirik mahnılarının əsas xüsusiyyəti geniş inkişaflı və axıcı melodiyaların olmasıdır. Bu xüsusiyyət həm də muğamla əlaqələndirilə bilər. Belə ki, muğamdan irəli gələn məqam-intonasiya əsası melodiyanın quruluş xüsusiyyətlərinə bilavasitə təsir edir. Nümunə üçün "Bilsin yar" adlı mahnını göstərə bilərik. Bu mahnı sadə və olduqca ifadəli melodiyaya malikdir. Biz burada poetik mətn və musiqinin parlaq vəhdətini müəyyənləşdirə bilərik. Mahnı "$a^1$" tonikalı segahın "$c^2$" səsi üzərində şikəsteyi-fars aralıq məqamına əsaslanır. Burada mühüm xüsusiyyətlərdən biri də mahnının variantlı şəkildə təqdim olunmasıdır ki, bu da birbaşa olaraq əsərin faktura dəyişkənliyi ilə bağlıdır. Mahnının strukturu giriş, nəqərat və bənd hissədən ibarətdir. Əlbəttə,bəstəkarın yaradıcılığında "Ulduzumsan", "İlk xatirələr", "Könlümü alsaydın" mahnıları da öz forma quruluşu ilə diqqəti cəlb edən əsərlərdəndir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur. Aparılan təhlillər aşağıdakı nəticələrin əldə olunmasına imkan verir.

- S.Ələsgərovun mahnı və romansları Azərbaycan kamera-vokal musiqisinin inkişafında yeni bir mərhələni təşkil edir.
- Bəstəkarın mahnı və romanslarının xüsusiyyətlərini səciyyənləndirən əsas cəhətlərdən - Azərbaycan vokal mədəniyyətinin ənənə və varislik prinsipləri, Avropa musiqi formaları ilə milli musiqinin xüsusiyyətlərinin uzlaşdırılması və s. göstərmək olar.
- S.Ələsgərovun mahnı və romansları həm onun fərdi dəst-xəttinin formalaşmasına, həm də milli vokal janrının inkişafına öz təsirini göstərmişdir. S.Ələsgərovun mahnı və romanslarında xalq mahnılarına xas olan melodiyanın üstünlüyü, musiqi dilinin melodikliyi, milli məqamlara

əsaslanan zəngin harmoniyaları bəstəkarı bu janr sahəsində səciyyələndirən əsas xüsusiyyətidir

- Görkəmli sənətkarın kamera-vokal yaradıcılığını belə səciyyələndirmək mümkündür:

a) Azərbaycan xalq məqamlarına əsaslanması;
b) Kamera-vokal yaradıcılığında milli musiqinin xüsusiyyətləri ilə Qərbi Avropa musiqi sistemini əlaqələndirməsi;
c) Mahnı və romanslarında məzmun səviyyəsində yeniliklə yanaşı, melodiya və harmonik dildə milli musiqinin intonasiya xüsusiyyətlərini saxlamaqla, özünün fərdi dəst-xəttinin nümayiş etdirilməsi.

- S.Ələsgərovun kamera-vokal yaradıcılığının ən mühüm xüsusiyyətlərindən biri onların müxtəlif məzmuna malik olmalarıdır. Dissertasiya işində mövzunun aktuallığı və genişliyi vurğulanır. Mahnı yaradıcılığının mövzu və ideya məzmununa görə belə qruplaşdırmaq olar:
  – Əmək qəhrəmanlarına həsr olunmuş mahnılar;
  – Vətənpərvərlik və qəhrəmanlarımız haqqında kompozisiya;
  – Məlahətli lirik mahnılar.

  Eyni zamanda bu şərti təsnifatın daxilində məhəbbət, təntənəli bayram mərasimlərini və uşaq mövzusunu əhatə edən mahnılara da rast gəlinir. Bəstəkarın mahnılarında xalq incilərinin özəklərini aşkar etmək olar.

- Bəstəkarın mahnılarının təhlili zamanı aşkar olundu ki, onun mahnı və romanslarının kompozisiya quruluşu üçhissəli formaya, ikihissəli formaya və bənd-nəqərat formasına əsaslanır.
- S.Ələsgərovun vokal əsərlərinin melodiyaları milli məqamlara əsaslanır. Mahnı və romansların əksər hissəsi rast, şur, segah, şüştər, bayatı-şiraz məqamlarına, eləcə də bir məqamdan digərinə keçidə əsaslanır. Məqamın istinad dayaq pillələri melodiyanın quruluşunda mühüm rol oynayır. Bir məqam çərçivəsində hərəkət, bir məqamdan digərinə keçid məntiqi şəkildə və sərbəstliklə həyata keçirilir.

- Bəstəkarın kamera-vokal yaradıcılığında melodiya və mahnının vəhdəti harmonik şəkildə təqdim olunur. Eyni zamanda Azərbaycan xalq musiqisi üçün səciyyəvi olan variantlılıq prinsipi bəstəkarın mahnılarında özünü aydın göstərir. Mahnılarının melodiyaları olduqca axıcı və oxunaqlıdır, məhrəm xarakter daşıyır.
- Müəyyən bir məqam üzərində bəstələnmiş kamera-vokal əsərində həmin məqama əsaslanan muğamın şöbələrinə keçidlər edilir.
- Kiçik həcmli kamera-vokal əsərlərində muğama strukturuna xas məqamlar özünü büruzə verir.

**Dissertasiyanın elmi nəticələri müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**


1. Niftiyeva, Ü.N. Mahnılarda yaşar bəstəkar // – Bakı: Musiqi dünyası, – 2017. № 2 (71), – s. 14-17
2. Niftiyeva, Ü.N. Qələbəyə səsləyən mahnıar: [Elektron resurs] //– Бакı: Harmony international music maqazine, – 2017. № 16. URL: http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=701&s=1&iss=28
3. Niftiyeva, Ü.N. Süleyman Ələsgərovun “Göy-göl” mahnısının musiqi ilə poetik quruluşunun vəhdəti // – Bakı: Musiqi dünyası, – 2018. № 4 (77), – s. 74-78
4. Niftiyeva, Ü.N. Süleyman Ələsgərovun lirik mahnılarının forma xüsusiyyətlərinə dair // – Bakı: Konservatoriya, – 2018. № 4 (40), – s. 91-95
5. Niftiyeva, Ü.N. S.Ələsgərovun “Qarabağ” mahnısının melodik xüsusiyyətlərinin tədqiqi // – Bakı: Pedaqoji Universitetinin xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2018. № 4 (66), – s. 377-382
6. Niftiyeva, Ü.N. Süleyman Ələsgərovun “Gözlə məni” və “İlk xatirələr” mahnılarının melodik təhlili // – Bakı: Musiqi dünyası, – 2018. № 3-4 (76-77), – s. 7995-8003

7. Niftiyeva, Ü.N. Süleyman Ələsgərovun “Hünər nəğməsi” mahnısının melodik xüsusiyyətlərinin tədqiqi: [Elektron resus] // – Бакı: Harmony international music maqazine, – 2018. № 17. http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=807&s=1&iss=29
8. Niftiyeva, Ü.N. Süleyman Ələsgərovun vətənpərvərlik mahnılarının forma xüsusiyyətlərinə dair // – Bakı: Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, – 2019. № 2 (7), – s. 105-112
9. Нифтиева, У.Н. Взгляд на песенное творчество Сулеймана Алескерова. // Сборник научных трудов по материалам XVIII международной научной конференции «Научные тенденции: Филология, Культурология, Искусствоведение», – Санкт-Петербург: – 26 ноября, – 2019, – с. 25-28
10. Niftiyeva, Ü.N. S. Ələsgərovun “Bizim vətən çörəyi” mahnısının melodik xüsusiyyətlərinin tədqiqi // – Bakı: Pedaqoji Universitetinin xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2019. № 4 (67), – s. 324-329
11. Niftiyeva, Ü.N. S.Ələsgərovun “Vətənimdir” romansının melodik xüsusiyyətlərinin tədqiqi // – Bakı: Musiqi dünyası, – 2021. № 2 (87), – s. 72-77
12. Niftiyeva, Ü.N. Süleyman Ələsgərovun mahnılarının janr xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XXIII respublika elmi konfransının materialları, II cild, Azərbaycan Memarlıq və İnşaat Universiteti, – Bakı: – 03-04 dekabr, – 2019. – s. 311-313
13. Нифтиева, У.Н. Особенностях формообразования романсов Сулеймана Алескерова // Материалы научно-практической конференции «Науки, технологии и инновации в контексте развития общества», – Черновцы: – 29-30 октября, – 2021, – с. 18-23
14. Нифтиева, У.Н. Некоторые особенности вокального творчества Сулеймана Алескерова // – Москва: Современная наука: актуальные проблемы теории и практики. Серия: Познание, – 2022. № 1, – с. 10-16

15. Нифтиева, У.Н. Песенное творчества Сулеймана Алескерова // – Москва: Philharmonica. International Music Journal, – 2022. № 1, – с. 1-12
16. Нифтиева, У.Н. Романсовое творчество Сулеймана Алескерова // – Москва: Музыка и время, – 2022. № 2, – с. 16 – 21
17. Niftiyeva, Ü.N. Süleyman Ələsgərovun mahnılarının mövzu rəngarəngliyi // Bəstəkar və zaman. Respublika elmi konfransının materialları, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, – Bakı: – 04-05 may, – 2022. – s. 288-294
18. Нифтиева, У.Н. Роль песенного жанра в творчестве С. Алескерова // EurasiaScience Сборник статей LIII международной научно-практической конференции, - Москва: – 15 мая, – 2023, – с.188-190.

Dissertasiyanın müdafiəsi ___ ________ 2025-ci il tarixində saat ____ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ _________ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25. 02. 2025
Kağızın formatı: 60x84 1/16
Həcm: 38 989 işarə
Tiraj: 100